# Mərkəzin 11 yaşlı fəxri uğurlarını artırır



Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin yaradıcı, istedadlı yeniyetmə gəncləri daim rayon, şəhər, respublika və beynəlxalq müsabiqələrdə layiqincə iştirak edirlər. Kollektivin uğurlarını daha da artırmaq əzmindədir. Və şübhəsiz ki, mərkəzin hər bir üzvünün bu nailiyyətlərdə payı var. 11 yaşlı rəsm dərnəyinin üzvü Mədinə Hüseynzadə də belə istedad sahiblərindəndir. O, beş il mərkəzin "Bədii gimnastika" dərnəyində məşğul olub. Hazırda isə rəsm və milli rəqs dərnəklərinin üzvüdür. Yeniyetmə rəqqasə kimi də çoxlu tədbirlərdə iştirak edərək öz məharətini göstərib. O, vaxtının çox hissəsini isə rəsm çəkməyə sərf edib. Rəsmlərindəki rəng çalarlarını çox bacarıqla seçir. Rəsmlərinin əksəriyyəti vətənpərvərlik mövzusundadır. Onun "Sülh quşu", "Biz müharibə istəmirik", "Qələbə bizimlədir", "Çəmənlikdə" və sair rəsmlərində həyata məhəbbət, müharibəyə nifrət hissləri aşılanır.

"Abşeron" Rəsm Qalereyasında sənətsevərlərə təqdim olunan "Rənglərlə arzulara doğru" adlı rəsm sərgisinə tamaşa etdikcə Mədinənin balaca ürəyində çox böyük və müqəddəs arzuların pöhrələndiyinin şahidi olursan. Müasir və milli üslubda işlənmiş əl işlərinin, kompozisiyalarının, təbiət mənzərələrinin sayı 50-dən çoxdur.

Dərnək rəhbəri Nərmin Abdullayeva istedadlı yetirməsi ilə fəxr etdiyini söyləyir, - çox bacarıqlı, inadkar qızdır, - deyir. Heydər Əliyev Fondunun "Buta" sarayında təşkil etdiyi Yeni il şənliklərində və Heydər Əliyev Sarayında keçirilən uşaqların bayram tədbirlərində fəal iştirak edir. Uğurları ilə yaşıdlarından fərqlənən bu qızcığaz 2014-cü ildə Hollandiya Krallığı Günü münasibətilə təşkil olunan "İncəsənət müsabiqəsi"ndə, həmin il Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş "Hüquqlarım" mövzusunda keçirilən müsabiqədə fəal iştirakına görə şəhadətnamələr qazanıb. Daha bir sevindirici hal: bu il Türkiyənin Bodrum şəhərində keçirilən "23 Nisan" Beynəlxalq Uşaq Festivalı günlərində sərgi salonlarının birində Mədinənin 40-a yaxın rəsm əsərləri nümayiş olunub. Rəsm işi - milli və müasir üslubda işlənmiş kompozisiyalar, təbiət rəsmləri və qrafika janrlarında ərsəyə gətirdiyi yaradıcılıq nümunələri Mədinənin artıq parlaq gələcək sahibi olacağına ümid yaradır.

Mərkəzin direktoru Lalə Qəti də yeniyetmə rəssamın sözün tam mənasında böyük istedad sahibi olacağına şübhə etmir. Söyləyir ki, Mədinə mərkəzin fəxridir. Onun gələcəyinə böyük ümid bəsləyirik. O, əsl istedad sahibidir.

# "Rəqsin növündən asılı olmayaraq insanın musiqi duyumu olmalıdır"



Fərid Heydərli Bakı şəhərində 2003-cü ildə anadan olub. Paytaxtdakı 73 nömrəli tam orta məktəbin VII sinfində təhsil alır. Rəqsə hələ uşaqlıqdan böyük həvəs göstərib. Bu həvəsini görən valideynləri isə balaca Fəridi Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə gətiriblər. 2010-cu ildən orada "Milli rəqs" dərnəyində məşğul olur və milli, eləcə də dünya klassiklərinin rəqslərinin incəliklərini dərindən öyrənir. Hazırda o, "Azəri inciləri" rəqs ansamblının fəal üzvlərindən biridir. İstedadlı yeniyetmə eyni zamanda bal rəqsləri ilə də məşğul olur. Fərid mərkəzin mədəni-kütləvi tədbirlərində rayon, şəhər, beynəlxalq müsabiqə və festivallarda fəal iştirak edərək diplom və fəxri fərmanlarla mükafatlandırılıb. İstedadlı yeniyetmə dəfələrlə Təhsil Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Nizami Rayon İcra Hakimiyyətinin, qeyri-hökumət təşkilatlarının təşkil etdikləri müxtəlif mərasimlərdə öz məharətini göstərir.

Heydər Əliyev Fondunun uşaqlar üçün "Buta" sarayında təşkil etdiyi Yeni il şənlikləri, Heydər Əliyev Sarayında keçirilən dövlət tədbirlərində, müxtəlif telekanalların uşaq verilişlərində bir-birindən maraqlı rəqsləri ilə hamını heyran qoyub. Fəridin özünün dediyinə görə, onun ən maraqlı çıxışı isə dünya xalqlarının rəqslərindən ibarət "Dostluq çələngi" adlı kompozisiyada oynadığı rus rəqsi və Niderland Krallığının Azərbaycandakı səfirliyinin təşkil etdiyi "Holland həftəsi günləri" ilə əlaqədar "Kral günü" adlı tədbirdə holland rəqsi olub.

Mərkəzin sevimlisi olan Fəridin uğurlarını sadalamaqla qurtaran deyil. O, "Azəri inciləri" rəqs kollektivinin tərkibində 2014-cü ildə İstanbul şəhərində keçirilmiş "23 Nisan" Beynəlxalq Uşaq Festivalında və 2015-ci ildə Hollandiyanın Den Haaq şəhərində türkdilli xalqların arasında keçirilən mədəniyyət festivalında uğurla çıxış edərək Azərbaycanı layiqincə təmsil edib, çoxlu fəxri fərmanlar, diplomlar qazanıb. Bütün nailiyyətlərinə görə valideynlərinə, eləcə də rəqs müəllimləri Fərid Əliyevə və Məryəm Quliyevaya minnətdarlığını bildirən yeniyetmə rəqqas bundan sonra da yaradıcılıq uğurlarını artırmaq üçün daha səylə çalışacağını söyləyir. Deyir ki, rəqsin növündən asılı olmayaraq insanın musiqi duyumu olmalıdır. Bir də buna həvəsi.

Rəqsə olan hədsiz həvəsi Fəridə hələ çox uğurlar qismət edəcək və çoxlu-çoxlu alqışlar, fəxri adlar qazandıracaq.

# Beynəlxalq müsabiqələr qalibi



Bildiyimiz kimi, 2016-cı il ölkə rəhbərinin müvafiq sərəncamı ilə "Multikulturalizm ili" elan olunub. Azərbaycanda yaşayan müxtəlif millətlərin nümayəndələri öz inanclarını, milli bayramlarını, dini mərasimlərini azad surətdə həyata keçirir, mehriban şəraitdə yaşayırlar. Haqqında söhbət açacağımız Kşnyakina Anastasiya İqorevnaya da başqa millətə, dinə və dilə mənsub olan yeniyetmə qızdır. O, 2007-ci ildə Ukraynanın Xarkov şəhərində anadan olub. Hazırda Bakı şəhərinin 214 nömrəli tam orta məktəbinin III sinfində təhsil alır. 2012-ci ildən "Bal rəqsləri" dərnəyində fəaliyyətə başlayan Anastasiya Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin bir neçə dərnəyində "Rəsm", "Milli rəqs" və "Çiçəyim" uşaq teatr studiyasında məşğul olur. Bu balaca qız öz bacarığı və istedadı ilə artıq kollektivin sevimlisinə çevrilib. O, müxtəlif rayon, şəhər, respublika, beynəlxalq səviyyəli müsabiqə və festivallarda öz istedadını nümayiş etdirib.

Bu il Anastasiya üçün xüsusilə uğurlu olub. Yeniyetmə Rəna Kərimovanın rəhbərlik etdiyi "Çiçəyim" uşaq teatr kollektivinin tərkibində Türkiyənin Bursa şəhərində keçirilən "23 Nisan" Beynəlxalq Uşaq Festivalında iştirak edib və hədiyyə qazanıb. İstedadlı qız 2014-cü ildə idman və bal rəqsləri üzrə keçirilən respublika kuboku uğrunda yarışmada, həmçinin 2015-2016-cı il tarixlərində idman rəqsləri üzrə keçirilən Bakı birinciliyində II yerə layiq görülüb, diplom və medallarla mükafatlandırılıb.

Bal rəqslərini öyrədən Məryəm Quliyevanın etimadını daim doğrultmağa çalışan Anastasiya daha səylə çalışacağını söyləyir. Balaca istedad həm də rəsm həvəskarıdır. Onun təbiət mövzusunda çəkdiyi rəsmlərə baxmaqla göz doymur, əsl sənət nümunəsi kimi peşəkar rəssamların da diqqətini cəlb edir. Sevimli müəllimi Nərmin Abdullayevadan rəsm çəkməyin sirlərini həvəslə öyrənir, bu sənətə gələcəkdə də önəm verəcəyini inadla bildirir.

Qeyd edək ki, mərkəzdə müxtəlif milli mənsubiyyəti olan istedadlı yeniyetmələr kifayət qədərdir və onların hamısını bir amal birləşdirir: qarşılıqlı hörmət, dostluq və Azərbaycana məhəbbət.

# Arzularımı reallaşdırmağa çalışacağam



Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasında təhsil almaq uşaqlıq arzum olub. Axır ki, istəyimə nail oldum. Artıq bu gün gimnaziyanın XI sinif şagirdiyəm, - deyə bizimlə söhbətə başlayan Ləman Rəhimlinin ürəyi lap dolu imiş. Uşaqlıq illərim çox xoşbəxt keçib. Buna görə valideynlərimə və təhsil aldığım İncəsənət Gimnaziyasının kollektivinə minnətdaram. İnsanın bədii zövqünü və mənəviyyatını zənginləşdirən incəsənətin bütün növlərinin əhatəsində olmuşam. Musiqi, rəqs, rəssamlıq, nitq sənətinin vəhdətindən ibarət olduğuna görə məhz teatr sənətini seçmişəm. Bir çox respublika müsabiqələrində, dahi rus şairi və dramaturq M.Y.Lermontovun anadan olmasının 200 illik yubileyi münasibətilə keçirilən məktəblərarası müsabiqədə, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəfər Cabbarlının yaradıcılığına həsr olunmuş müsabiqədə, Abdulla Şaiqin 135 illiyinə həsr olunan respublika müsabiqəsində I yerlərə layiq görülmüşəm. Həmçinin Gimnaziya daxilində keçirilən tədbirlərdə və müsabiqələrdə Füzuli dühasının bəhrəsi olan "Leyli və Məcnun"poemasını məharətlə ifa etmişəm. Hər il oxuduğum təhsil müəssisəsində keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümlərinə həsr olunmuş bədii qiraət müsabiqələrində iştirak etmiş, I və II yerlərə layiq görülmüşəm. Azərbaycanın görkəmli bəstəkarı Üzeyir Hacıbəyovun "O, olmasın, bu olsun"musiqili komediyasında Sənəm rolunu, Hökümə Qurbanovanın 100 illik yubileyinə həsr olunmuş ədəbi-bədii kompozisiyasında Almaz, dahi dramaturq Mirzə Fətəli Axundovun "Hekayəti müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadükuni məşhur" əsərində Şəhrəbanu rolunu ifa etmişəm. 20 Yanvar "Şəhidlik zirvəsi" adlı ədəbi-bədii kompozisiyasında, ümummilli lider Heydər Əliyevə həsr olunmuş tədbirlərdə aparıcılıq etmişəm.

Respublika əhəmiyyətli müxtəlif tədbirlərdə fəal iştirak etmiş, diplom, fəxri fərman, sertifikat və s. hədiyyələrlə mükafatlandırılmışam.

Gimnaziyadaxili müxtəlif fənlər üzrə keçirilən olimpiadalarda Ləmanın qazandığı uğurlar da sevindiricidir. Ləman Rəhimli yüksək nəticələr göstərərək, davamlı uğurlara imza atır. O, bütün arzularına çalışqanlığı və əzmkarlığı ilə çatır. Bu isə onu xoşbəxt gələcəyə aparan ən işıqlı yoldur.

# Uğur qazanmağımda müəllimlərimin rolu əvəzsizdir



Nigar Qasımzadə Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının XI sinfində teatr şöbəsində təhsil alır. İncəsənət xadimlərinin, şair və yazıçıların yubileylərinə həsr edilən tədbirlərdə həmişə öz istedadını nümayiş etdirib. Əksər tədbirlərin aparıcısı olmaqla bərabər bir çox əsərlərin qəhrəmanlarını da canlandırıb. Nizami Gəncəvinin yubileyində söylədiyi qəzəllər dahi şairin seçilmiş əsərləri sırasına daxil idi. Nigar M.Ə.Sabirin yaradıcılığına həsr edilmiş tədbirdə pullu kişi ilə evlənmiş cavan qız obrazını da ustalıqla yaradıb. Bir müddət sonra isə Səməd Vurğunun yubiley tədbirində təbiət və vətən sevgisinə həsr olunan şeirlərini özünəməxsus intonasiya ilə söyləyib.

Unudulmaz aktrisa Hökümə Qurbanova üçün təşkil edilən tədbirdə "Səyavuş" əsərində baş rolu ifa edən istedadlı şagird "Mən bir solmaz yarpağam ki" şeirini rəqs edə-edə ahənglə ifa edib. Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş bədii qiraət müsabiqəsində Nigar III yerə layiq görülüb. Həmin il elə bu münasibətlə 8 may tarixində keçirilən tədbirdə də Nigar Leyla Əliyevanın müəllifi olduğu "Elegiya" şeirini musiqi və rəqsin sintezi şəklində təqdim edib.

2015-ci ildə Nigarın digər bir uğuru isə Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbənin 70 illiyinə həsr edilən inşa müsabiqəsində "Heç kəs unudulmur, heç nə yaddan çıxmır" mövzusunda yazdığı inşa müsabiqəsində I yerə layiq görülməsi olub. M.Y.Lermontovun 200 illik yubileyinə həsr olunan Respublika müsabiqəsində "teatrlaşdırılmış səhnəcik" nominasiyası üzrə III yerə sahib olub. 2016-cı ilin əvvəllərində C.Cabbarlının yaradıcılığı gecəsində keçirilən müsabiqədə fəal iştirakına görə o, diplomla mükafatlandırılıb. Bir neçə ay əvvəl Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən "Milli-mənəvi dəyərlər haqqında düşüncələrim" mövzusunda keçirilən inşa müsabiqəsinin Respublika mərhələsində II dərəcəli diploma layiq görülən bu istedadlı şagird öz üzərində səylə çalışır. Bütün uğurlarının təməlində həm təhsil aldığı məktəbin, həm də müəllimlərinin rolu olduğunu qürur hissi ilə söyləyir.

# Türkiyədə qızıl medala layiq görülmüş gənc istedad



Nihad Orucov musiqiyə kiçik yaşlarından maraq göstərib. Hələ dörd yaşında ikən valideynləri onu yerli televiziya kanallarının birində yayımlanan Müslüm Maqomayevin konsertini böyük zövqlə dinlədiyini müşahidə ediblər. Buna görə də ona klassik mahnı ifaçılarının (R.Behbudov, M.Maqomayev və s.) mahnılarından ibarət audiodisk alıblar. Həmin gündən balaca Nihad yalnız bu mahnıları dinləyərək yuxuya dalıb. 5 yaşında ikən o, "Lider" kanalı ilə yayımlanan "Dan ulduzu" adlı uşaqlar arasında keçirilən Respublika yarışmasında II yeri tutub.

2008-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Parisdə UNESCO-nun qərargahında yaradılan "Xoşməramlı Mələklər" adlı istedadlı uşaqlardan ibarət qrupun tərkibində olan 8 yaşlı Nihad məharətlə çıxış edib. Nihad respublika və beynəlxalq müsabiqələrdə özünü dəfələrlə sınayıb və hər dəfə də mükafat qazanıb. 2012-ci ildə Azərbaycanda keçirilən "Ana dilimizi sevək, sevdirək" adlı mahnı müsabiqəsinin gümüş medalına, həmin ildə Türkiyədə 140 ölkənin qatıldığı "Uluslararası türkce olimpiyatlarında" qızıl, gümüş və bürünc medallarla təltif olunub. 2015-ci ildə Mərakeşdə, həmin ilin aprelində isə ABŞ-nın paytaxtı Vaşinqtonda keçirilən "Colors of the World-2015"(Dünyanın rəngləri) adlı festivala dəvət alaraq "Ayrılıq", "Daşlı qala" mahnıları ilə çıxış edib və tamaşaçılarda xoş ovqat yaradaraq festivalın təşkilatçıları tərəfindən sertifikat və hədiyyələrlə mükafatlandırılıb.

Hazırda Milli Konservatoriyanın tərkibində Respublika İncəsənət Gimnaziyasının X sinfində təhsil alan Nihad boş vaxtlarında musiqi dinləyir, sanki o, bu vaxt həm də dincəlir. Artıq bu onun hobbisinə çevrilib, bəstələdiyi mahnıları da gitarada ifa etməyi çox xoşlayır.

**Səhifəni hazırladı: Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*
s.seferova@muallim.edu.az